**AZƏRBAYCAN RESPUBLİKASININ**
**RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİ**
**DÖVLƏT DƏNİZ VƏ LİMAN AGENTLİYİ**

AZ 1003, Bakı şəhəri, Xanlar küçəsi, 2B
https://www.ddla.gov.az

Tel: (+994 12) 497-44-05 Faks: (+994 12) 497-44-06
E-poçt : info@ddla.gov.az


"29" Aprel 2024-cü il

№ 3-27-106/2-371/2024

**Dəniz nəqliyyatı sahəsində fəaliyyət göstərən şirkətlərə və gəmi sahiblərinə**

Məlumatın verilməsi haqqında

Məlumat üçün bildiririk ki, bəzi hallarda layihənin yekunlaşması, gəmiyə təhkim olunmuş tapşırıqların sonlanması, eləcə də digər subyektiv səbəblərdən gəmi sahibləri tərəfindən maliyyə xərclərinin azaldılması məqsədilə gəmilərdə heyət sayının azaldılması zərurəti yaranır.

Dəniz nəqliyyatı sahəsində dövlət siyasətini və tənzimləməni həyata keçirən qurum olaraq Dövlət Dəniz və Liman Agentliyi yuxarıda qeyd edilən vəziyyətin şirkətlərin kommersiya məsələləri ilə bağlı olduğunu qəbul edir, lakin bu tədbirlərin qanunvericilik çərçivəsində icra edilməsini tələb edir.

Belə ki, gəmi sahibləri və ya gəminin istismarı ilə məşğul olan şirkətlər heyət sayının azaldılması məqsədilə istismardan çıxarılaraq müvafiq təsnifat statusu verilən gəmilər (lay-up status) barədə əvvəlcədən Agentliyə məlumat verməli, razılıq olduğu təqdirdə təsnifat cəmiyyətləri tərəfindən müəyyənləşmiş tədbirlər çərçivəsində gəminin müvafiq olaraq istismardan çıxarılmasından və buna uyğun olaraq körpüdə dayanarkən gəminin əmniyyətliliyi, yanğın təhlükəsizliyi, mühafizəsi, ətraf mühitin qorunması, habelə su və enerji ilə təchiz edilməsi ilə bağlı tələblərdən irəli gələn məsələlərin həllini təmin etməlidirlər.

Lakin tərəfimizdən istismardan çıxarılması ilə bağlı (lay-up statusuna keçməsi) razılıq almadan gəminin "Minimum heyət tərkibi haqqında Şəhadətnamə"sində müəyyənləşdirilmiş minimum say həddindən aşağı olan heyət üzvləri ilə istismarda olan gəmilərin fəaliyyəti də müşahidə olunmaqdadır.

Bildiririk ki, yuxarıda qeyd olunan proseslərin həyata keçirilməsi həm Azərbaycan Respublikasının dəniz nəqliyyatı sahəsində tərəfdar çıxaraq qoşulduğu Beynəlxalq Konvensiya və Məcəllələrin, həm də Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 8 sentyabr tarixli 296 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazi sularında üzmə Qaydaları"nın tələbləri nəzərə alınmaqla həyata keçirilməlidir.

Əlavə olaraq, istismardan çıxarılmamış gəmilərdə heyətin say tərkibinin azaldılması yalnız gəminin minimum növbəçəkmə qabiliyyətinin saxlanması və fövqəladə hallarda operativ tədbirlərin görülməsi kimi risklər qiymətləndirilərək və müvafiq qaydada əsaslandırılaraq liman kapitanları ilə razılaşdırılması şərti ilə həyata keçirilə bilər.

**İdarə Heyəti sədrinin müavini,**
**İdarə Heyətinin sədri vəzifəsini**
**müvəqqəti icra edən** **Əfqan Cəlilov**